AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

YUNUS OĞUZ

# QƏDİM TÜRKLƏR VƏ PASSİONARLIQ NƏZƏRİYYƏSİ L.N.QUMİLYOVUN TƏDQİQATLARINDA

-14241-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZ... ...XANASI

"Şərq-Qərb"
Bakı-2011

63,3(5)+63,5(5 Имя)+63,3(5 Иш)
O-36

*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur*

Layihənin rəhbəri və ön sözün müəllifi: **Yaqub Mahmudov**
*Əməkdar elmi xadimi,*
*AMEA-nın müxbir üzvü,*
*tarix elmləri doktoru,*
*professor*

Redaktor: **Fatimə Abbasquliyeva**

**Yunus Oğuz. Qədim türklər və passionarlıq nəzəriyyəsi L.N.Qumilyovun tədqiqatlarında.**
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 192 səh.

**ISBN 978-9952-34-627-4**

© AMEA Tarix İnstitutu, 2011
© Yunus Oğuz, 2011
© "Şərq-Qərb" Nəşriyyat evi, 2011

## AZƏRBAYCAN TORPAQLARI VƏ XƏZƏR HÖVZƏSİ QƏDİM TÜRKLƏRİN ULU VƏTƏNİDİR

### Yunus Oğuzun "Qədim türklər və passionarlıq nəzəriyyəsi L.N.Qumilyovun tətqiqatlarında" kitabına ÖN SÖZ

Yunus Oğuzun oxuculara təqdim olunan yeni tədqiqatı passionarlıq nəzəriyyəsi və qədim türklərin tarixinin öyrənilməsində bu nəzəriyyənin rolu məsələlərinə həsr olunmuşdur. Bu nəzəriyyənin ən tanınmış nümayəndələrindən biri olan L.Qumilyovun tədqiqatlarının kitaba əsas olaraq götürülməsi də təsadüfi deyil: məlumdur ki, tarix elmində uzun müddət monosentrizm hökm sürmüş, müxtəlif sivilizasiyaların öyrənilməsi, xüsusilə onların mənşəyi məsələsi də bu düşüncənin təsiri altında araşdırılmışdır. Sovet tarixşünaslığı da elmə, əslində, kardinal bir dəyişiklik gətirməmiş, monosentrizm sovet tarixçilərinin də əsərlərinin başlıca xətti olmuşdur. Avropa qitəsi klassik inkişaf yolu ilə gedən sivilizasiya sayılmış, Asiyanın nəhəng coğrafiyasında məskunlaşan xalqların, o cümlədən Türkün tarixi bir periferiya tarixi kimi qələmə verilmişdir. Amma Lev Nikolayeviç Qumilyov bütün bu ənənəvi düşüncələrdən fərqli olaraq, Avrasiyanın türklərlə məskunlaşmış böyük məkanını – farsların "Turan", çinlilərin "Bey-xu", yunanların "Skifiya" dedikləri "Böyük Çöl"ü periferiya deyil, sivilizasiyanın mərkəzi olaraq araşdırmışdır.

Digər tərəfdən, L.N.Qumilyov öz tədqiqatlarında ənənəvi metodikadan – mənbələrin təhlili üsulundan da bacardıqca yan qaçaraq, etnoloji metoda üstünlük vermişdir. Ümumiyyətlə, onun, demək olar ki, bütün araşdırmaları tarixi-coğrafi-etnoloji xarakterlidir. Alimin başlıca konsepsiyası – "passionarlıq" nəzəriyyəsi isə tarix, etnologiya, coğrafiya və biologiyanın sintezidir desək, yanılmarıq.

"Türklərin tarixinə yeni bir baxış", "Attila", "Türkün gizli tarixi" kimi əsərlərin müəllifi olan Yunus Oğuzun hazırkı əsərini də həm qədim Türk tarixinin, həm bu tarixin öyrənilməsində mühüm xidmətləri olan Lev Qumilyovun elmi irsinin araşdırılmasına qiymətli bir töhfə saymaq olar.

L.N.Qumilyovun passionarlıq nəzəriyyəsinin qısa icmalını oxucuya çatdıran Yunus Oğuz türklərin tarixində passionarlığın qalxma və enmə (müəllifin dili ilə "yanma") fazalarını araşdırır, müxtəlif sivilizasiyaların nümunəsində "qırılma", "inersiya" və "obskurasiya" mərhələlərinin də olduğunu göstərir.

L.N.Qumilyovun əsərlərində Uzaq Sibirin, Altayın və Xəzər hövzəsindəki qədim türklərin tarixinin öyrənilməsi səviyyəsini təhlil edən

Yunus Oğuz başlıca diqqəti hunların hərbi, siyasi, sosial tarixinə yönəldir. L.N.Qumilyovun "türkütlər" adı altında verdiyi göytürklərin və onların tarixinin "varisləri" olan xəzərlərin Avrasiyanın siyasi və mədəni inkişafında oynadığı böyük rolu müəyyən edir. Uyğurlar, qaraxanlılar, kimak, quz və kumanların da tarixi kitabda passionarlıq nöqteyi-nəzərindən araşdırılır.

Yunus Oğuzun bu əsərdə xüsusi diqqət yetirdiyi məsələlərdən biri də Səlcuq tarixidir. Qədim Oğuz dünyasının çox əhəmiyyətli inkişaf dönəmini əhatə edən, Yaxın və Orta Şərqin siyasi, etnik, mədəni həyatını dəyişən Səlcuqların tarixi kitabda qısa, lakin adıçəkilən nəzəriyyənin Ümumtürk tarixi ilə bağlı məqamlarını anlamaq üçün vacib olan şəkildə araşdırılır.

Yunus Oğuz yeni kitabında türk super etnosunun təşəkkülü və inkişafı tarixini xüsusi metodika ilə araşdırmaqla, əslində, tarix elmindəki bir çox stereotipləri və ehkamları cəsarətlə inkar edir. Onun bu təşəbbüsü ilkin addım kimi diqqətəlayiqdir. Doğrudur, müəllifin irəli sürdüyü bəzi mühakimələr, o cümlədən Anadoluda və Azərbaycanda yaşayan türklərin prototürk etnos kimi genezisinin məhz bu bölgələrdən başlaması, qədim türklərin və prototürklərin Şərqdən Qərbə deyil, əks istiqamətdə axın etməsi ilə bağlı fikirləri elmə məlumdur və hələlik fərziyyə xarakteri daşıyır. Elə buna görə də, təbiidir ki, elmi ictimaiyyət arasında müəyyən mübahisələr doğuracaqdır. Lakin elmi həqiqət elmi mübahisələrdə doğulur. Tarix elmində mülahizələrin tarixçinin şəxsi fikirləri çərçivəsindən çıxıb elmi müddəaya çevrilməsi üçün bu mülahizələrin ən azından səslənməsi gərəkdir.

Düşünürəm ki, ehkamçılıqdan uzaq bir tədqiqatçı olan Yunus Oğuzun yeni kitabı həm mütəxəssis-tarixçilər, həm də geniş oxucu kütləsi üçün qədim Türk tarixi haqqında yeni düşüncə istiqamətinə təkan verəcəkdir.

Fikrimcə, qədim Türk tarixi daha dərindən araşdırıldıqca tarix elmi də bir o qədər zənginləşəcəkdir. Avrasiya ən qədim zamanlardan başlayaraq türkün ümumi Vətənidir. Bu Vətənin hər bir guşəsində türkün tarix payı var. İnanıram ki, qədim Azərbaycan torpaqları, bütövlükdə Xəzər hövzəsi Türkün ən ulu Vətənidir. Qədim türklər məhz bu məkandan bütün Avrasiyaya yayılmışlar. Bu istiqamətdə tətqiqatların gələcəyinə böyük ümidlər bəsləyirəm...

**Y.M.Mahmudov**
*AMEA-nın müxbir üzvü,*
*tarix elmləri doktoru, professor*



# «TÜRK» ETNONİMİNƏ BİR BAXIŞ

## GİRİŞ

Tarix üçün «etnonim» anlayışının öyrənilməsinin vacibliyini bu sahədə çalışan çoxsaylı alimlər həmişə qeyd etmişlər.

«Etnonimin yaranması, onun coğrafi inkişafı, məhv olunması, olması və ya başqa keyfiyyətlərə keçməsi, digər bir sözlə, etnonimin bütün tarixi bu və ya başqa şəkildə etnosun tarixi ilə bağlıdır. Tarixin dərin əsrlərinə endikdə etnonim və etnos anlayışları daha dolğunlaşır» və bunları tədqiq etmək daha da asanlaşır. R.Q.Kuzev yazır ki, etnonimin öyrənilməsi mürəkkəb və çoxpilləli etnik tarixin dərin qatlarının tədqiq edilməsinə imkan verir (1. 76-77). M.B.Kryukov «Eramızdan əvvəl II-I minilliklərdə Qədim Çin yazılı abidələrində dünyanın etnik xəritəsi» adlı əsərində yazır: «Etnonimin nəzəri problemlərinin tədqiqatı (ən əsası onların yaranması və funksiya daşıyıcıları) etnik insanların tarixi tipologiyası üzrə mürəkkəb xüsusiyyət yaratmaqla yanaşı, həm də mürəkkəb komplekslərin çözülməsinə imkan verir» (2. 34).

Etnonimlərin həqiqi etimologiyasını öyrənmədən və bilmədən tarixçilər ictimaiyyəti çaşdırıcı yola apara bilər. Bu barədə rus tarixçisi D.İlovayskiy xəbərdarlıq edir: «Xalqların əsrlər tarixində, biz daim adların dəyişməsini görürük, bu da bizi mənbələrdən uzaqlaşdırır və rus, bulqar, xəzər xalqlarının tarixinin öyrənilməsində çox güclü təsirini göstərir; ancaq tarixşünaslıq elmi dediklərimdən kənarda qalır və yeni xalqlarla rastlaşdıqda, onları yeni xalq kimi qeydə alır» (3. 259). D.E.Yeremeyev isə özünün «Türk etnonimlərinin semantikası» adlı əsərində qeyd edir ki, türk etnonimləri həm məzmun, həm də formaca müxtəlif və çoxşaxəlidir. Çox zaman isə bu sosiumun etnik tarixinin yaranmasını əks etdirir və etnogenetikanın tədqiqatında əlavə mənbə rolunu oynayır (4. 134).

Etnonimlərin etimologiyası türkşünaslıqda ən çətin məsələ olaraq qalır (5. 199) və bunun həlli üçün yeni mənbələr axtarmaq və araşdırmanı davam etdirmək lazımdır.

Avropada eramızın VII əsrində, ilk dəfə olaraq Troya (Turova) haqqında əfsanələr gəzəndə, əvvəlcə «türk» sözünə ciddi diqqət

yetirməyə başladılar, çünki Troya çarının adı TORQURUS «türk» etimologiyası ilə çox uyğun gəlirdi.

Qeyd etmək lazımdır ki, «Avesta»nın qəhrəmanlarından biri Tur olub.

Firdovsinin «Şahnamə» əsərində də «TURAN» sözünün «tur», daha sonra isə «türk» termini ilə bağlılığı göz qabağındadır.

«Divanü lüğati-it-Türk» əsərində Mahmud Kaşğari «türk» sözünü üç mənada verib:

1. Türk kudaş edi – günəş göyün ortasında
2. Türk üzüm edi – üzümün dəymiş vaxtı
3. Türk yigit – ər türk, döyüşkən cavan (6. 5).

«Qədim türk sözlüyü»ndə isə «türk» termini aşağıdakı mənaları verir:

1. Türk - güclü, qüdrətli
2. Türk - tayfalar ittifaqı (13. 599).

Azərbaycan tarixçisi Altay Məmmədov Türkiyə alimi Adilə Aydana istinadən qeyd edir ki, ərəb əlifbası ilə iki şəkildə yazılan «türk» sözü dörd cür oxuna bilər: «TÜRK, TÜRÜK, TÖRK, TÖRƏK». Daha sonra o yazır: «Türk qrammatikası formalaşma mərhələsində ikən bir qisim türklər verimli-məhsuldar bir torpağa yerləşib köçərilikdən əl çəkəndə, bunlara başqa türklər – «TUR»lar, «TURUK»lar, DURALLAR demişlər» (7. 151-152).

Göründüyü kimi, yuxarıda qeyd etdiyimiz «türk» sözünün dörd cür oxunuşuna təəssüflər olsun ki, uzun illər diqqət yetirilməmiş, eyni məna daşıyan bu sözlərə müxtəlif interpretasiya vermişlər.

F.Ağasıoğlu «Azər xalqı» kitabında sözlərimizin təsdiqi kimi yazır: «Qədim Azərbaycanda türk adlı boylar m.ö. III minillikdə qurulan Aratta, Quti, Lulu dövlətləri zamanında üzdə olmasalar da, həmin dövlətlərin qurulmasında digər türk boyları ilə birgə iştirak etmişlər.

Assurları *(aşşurlar - Y.O.)* ən çox narahat edən məlumat türk dəstələrinin kiçik və ya böyük qüvvə ilə basqın edəcəyi xəbəri idi. Bu baxımdan, 21 №-li tabletdə verilən məlumat xarakterikdir.

«Turuk duşmani çıxdı və (...)yə getdi.

O, Kakkulatimi işğal etdi ... bu hücumdan bəzi turukların sayı çox görünmür.



Ancaq arta bilər. Onlar gəlməyə davam edəcək» (8. 44-45).

Ümumiyyətlə «türk» termininin mənasını dünya alimləri müxtəlif cür yozmuşlar. Məsələn, Vamberi və L.Munkaçi «türk» sözünə «yaradıcı», «insan», V.Tomson və Y.Nemet «güc», «qüvvət» mənasının verilməsini daha məqsədəuyğun hesab edirlər.

Bununla yanaşı «türk» sözünə yanaşmada iki nəzəriyyə mövcuddur. Birinci nəzəriyyə tərəfdarları hesab edirlər ki, «türk» etnoqrafik termindir. İkincilər isə belə düşünürlər ki, bu sözə yalnız siyasi anlamda yanaşmaq düzgün olardı. Akademik V.V.Bartold ikinci nəzəriyyənin tərəfdarıdır və «türk» sözünü etnoqrafik termin hesab etmir (9. II. 553). O, iddia edir ki, «türk» sözü «qanun», «adət» deməkdir və «türk» < «türü» «xalqların qanun əsasında birləşməsi» anlamını verir. Lakin akademiklər A.N.Kononov və N.Y.Marr V.V.Bartoldun bu fikri ilə razılaşmır və belə hesab edirlər ki, V.V.Bartoldun yazdıqları mülahizələrdən başqa bir şey deyil və bunun inkişafı bu sahədə özünə yer tapa bilmədi.

Qeyd etməliyik ki, A.N.Kononov N.Y.Marrın «türk» sözünün «tar-xan»dan yaranması fikri ilə razılaşır və bu termin altında Tanrı tərəfindən seçilmiş təbəqə və tayfa birləşmələrinin eyni kökdən olan ittifaqı kimi qəbul edir.

A.N.Kononov yazır: «Burada mən diqqəti N.Y.Marrın dediyi sözlərə yönəltmək istəyirəm. Belə ki, «türk» termini Allaha bərabər olan seçilmiş təbəqə ilə bağlıdır» (10. 43).

Qeyd etməliyik ki, «tar» sözünün «türk» terminınə sinonim olması bir çox müasir alimlərimiz tərəfindən təsdiq olunur. Məsələn, professor F.Ağasıoğlu yazır: «Proto-azərlərin (həmçinin proto-türklərin) mənşəyinə işıq salan teonimlərdən biri də tar/tur allomorfu ilə işlənən Tar sözüdür ki, bu da sonralar türk (tur-uk) etnonimin yaranmasına səbəb olmuşdur. Azər dialektlərində bu gün də Tarı sözü «Allah» anlamında işlənir» (8. 296).

Sonralar Tar/Tur termini müxtəlif toponim, etnonim, hidronim, həmçinin adlarda öz əksini tapmışdır. Turan, Turova, Tural, Tarkan, Terek, Taran, Tar. Qəribədir ki, Troyadan İtaliyaya məlum səbəbdən köç etmiş etruskların ulu babasının adı Tarkan olmuşdur. Çinin qərbində yaşayan uyğurlara, həm də «tarançı» deyirlər. Tatar sözü «tarlıq tatarları» sözünə bərabərdir.

Qeyd etmək yerinə düşərdi ki, tarixin atası Herodot iskitlərin

*(skiflərin)* soy-kökü haqqında yazarkən aşağıdakı önəmli sözləri qeyd edir: «...Bir vaxtlar hələ məskunlaşmamış bu ölkənin ilk sakini TARQITAY *(kursiv – Y.O.)* adlı bir adam olmuşdur. İskitlərin (skiflərin) dediyinə görə, Tarqıtayın atası Zevsdir, anası isə Borisfen çayının qızıdır (iskitlər buna israr etsə də, mən buna inanmıram). Belə bir əsil-nəsəbi olan Tarqıtayın da üç oğlu varmış» (11. 218).

Yeri gəlmişkən, eyni dilə və inanca malik olan bütün tayfaların birləşmiş adı türk olsa da, siyasi baxımdan bunu «el» adlandırırdılar. Maraqlıdır ki, «el» sözü həm siyasi ittifaq, həm ordu, həm də tayfaların birliyi kimi nəzərdə tutulurdu.

«El» termini tarixi semantika baxımından indiki ənənəvi çalarlarla («Oğuz elləri», «Kafir elləri», «El-oba») yanaşı, siyasi səpkidə – dövlət mənasında işlədilir. Bu sözə «Kitabi-Dədə Qorqud»da tez-tez rast gəlirik. Burada «el» sözü həm də siyasi məna daşıyır (103). Məsələn, «Eldə yağı yox ikən, sənin babanın üstünə yağı gəldi» cümləsində «el» siyasi termin kimi verilmişdir.

Mahmud Kaşğarinin lüğətində də «El» termini öz mahiyyətini itirmir:

El = el, vilayət (6. I. 122, II. 39, 51, 240, III. 26, 131, 210)

El = açıqlıq, boşluq (6. I. 122)

Elbaşı = atabaxan, mehtər, vilayətin başçısı (6. I. 122)

El = iki bəy arasında barışıq (6. I. 122)

Elbol = sülh, barışıq etmək (6. I. 122)

L.N.Qumilyova görə isə qədim türklər böyük bir ərazini «El» adlandırırdılar.

F.Ağasıoğlu «El» sözünə başqa bir nöqteyi-nəzərdən yanaşır. Biz onun fikirlərinə diqqət yetirməyə və bölüşməyə borcluyuq. O, yazır: «Ulu soydaşlarımızın qurduğu Quti elinin tarixi, həm də demokratiya tarixi kimi qiymətlidir, çünki, əsl xalq hakimiyyəti olan demokratik seçki ilə formalaşan iqtidar institutu olan Quti eli hakimiyyətin atadan oğula keçdiyi qonşu Akkad, Şumer, Elam dövlətlərindən fərqlənirdi. Qədim dilimizdə xalq və dövlət anlamlarının bir sözlə – «El» sözü ilə ifadə olunması da türk etnosunun demokratik ruhundan yaranmışdır» (8. 149).

«Qədim türk sözlüyü»ndə də «el» sözü müxtəlif mənalarda işlənir:



1. El - tayfa ittifaqı; (men elig etmiş men - mən tayfaların ittifaqını yaratdım)
2. El - xalq
3. El - dövlət
4. El begi - vəzifədə olan
5. El kün - xalq
6. Elçi - səfir, qasid, elçi (13. 168-169)

A.N.Baskakov «türk» termininin qohum tayfaların münasibətlərindən və ittifaqından yaranan bir söz olduğunu iddia edir (5. 201).

A.N.Kononov isə hesab edir ki, müasir xüsusi ədəbiyyatda rast gəlinən «türk, turuk, turkü, türküt» sözlərindən ən düzgün olan variantı və düzgün oxunası «türk» terminidir (12. 46-47).

L.N.Qumilyov isə qeyd edir ki, istənilən xalqın tarixi kök etibarı ilə qədimə çıxıb gedir və konkret tarixdən başlanır (34. 26).

Qədim türk lüğətində, əgər semantika nöqteyi-nəzərdən yanaşsaq «türk» sözünü «tör»lə də başlamaq olar. Bu zaman bunun mənası «layiqli yer» kimi də başa düşülə bilər.

E.M.Murzayeva, M.Q.Pavlova kimi alimlər qeyd edirlər ki, qazax, qırğız, pamir, ispan, katalan və başqa dillərdə «tör», «tor» sözləri «yuxarı», «yüksək», «zirvə», «dağ», «qüllə», «bürc», «dağın ən yüksək zirvəsi», «yüksək dağlıq yer», «layiqli yer» mənasını verir (14. 82-83).

Bu açmalar bir daha göstərir ki, «tör», «tor» sözləri müxtəlif mənalarda işlənsə də, hamısı «yuxarı», «yüksəklik» anlamları ilə üst-üstə gəlir, yəni bu sözlərdən yaranan «türk» sözü də yüksəkdə duran bir xalq, yaxud tayfa kimi nəzərdə tutulur və bu yüksəklik «güc» və «qüvvə» olaraq cəmiyyətini iyerarxiyasına tətbiq olunur.

XIII əsrdə Qaraqorumda olan səyyah Marko Polo xaqanın ziyafətində iştirak edərkən bu iyerarxiyanı belə təsvir edir: «Ziyafətdə böyük xaqan (Xubilay xan) masa arxasında belə oturur; onun masası digər masalardan çox yuxarıda durur. Xan zalın dərinliyində arxası şimala, üzü cənuba əyləşir. Sol tərəfində böyük və sevimli xatunu, bir az aşağı masada oğulları və yaxın qohum-əqrəbası otururlar. Özü də onlar masalarına əyləşərkən başları xaqanın ayaqları bərabərliyində olmalıdır. Bir az aşağıda isə adlı-sanlı əyanlar və onların xanımları yerləşirlər... Burada hər kəs öz

yerini bilir və hər kəs böyük xaqanın müəyyən etdiyi qaydada əyləşməlidir» (15. 111).

Göründüyü kimi «türk» sözünün anlamına XIX-XX əsrlərdə müxtəlif cür yanaşsalar da, iqtibas gətirdiyimiz alimlər, yanaşmaları müxtəlif olsa da, eyni fikirdə olurlar ki, bu söz «güc», «qüvvət» mənasını verir. Təbiidir ki, «güc», «qüvvət» olan bir yerdə millətin «layiqli», «yüksək»də yer tutması heç kimi təəccübləndirməməlidir.

Biz də belə fikirləşirik ki, birinci element «türk» termini «TÜR» sözünün fonetik variantıdır. Bu söz bizi qəbilələrin, tayfaların, xalqların çox qədim vəziyyətinə gətirib çıxarır. TÜR (TİR-TÖR-TÖS) elementi bizi türk elementilə ibtidai totem baxışlarla başlayır. TİR-TÖR-TÖS-ün semantikası imkan verir ki, bu söz «məbəd yeri», «seçilmiş yer», «obada ən yaxşı yer», «ocaq başında ən başlıca yer» mənasından «hakim», «ağa», «qanun», «adət»ə qədər uzun bir yol keçsin. Elə M.Kaşğaridə də TÖR/TÖRƏ evin yuxarı başı, divanı, kürsüsü (6. III. 130, 209), TÖRÜ sözü adət-ənənə və törədilmək, yaradılmaq kimi başa düşülür (6. IV. 565), «El kalır, törü kalmas, yəni eldən vaz keçmək olar, törədən vaz keçmək olmaz» (6. III. 209).



# I FƏSİL

## L.N. QUMİLYOVUN PASSİONARLIQ NƏZƏRİYYƏSİ

Hər şeydən öncə L.N.Qumilyova görə passionarlıq anlayışına aydınlıq gətirək. O yazır: «Passionarlıq ətrafı dəyişməyə can atmağı bacarmaq, yaxud fizika dili ilə desək, ətrafın aqreqat vəziyyətinin dağıdılması deməkdir. Passionarlıq impulsu o qədər güclü olur ki, passionarlar onun nəticəsini təsəvvür edə bilmirlər. Bu çox vacib şərtdir, çünki passionarlıq şüurun deyil, şüuraltı hərəkətin atributudur. Bu da öz növbəsində əsəb sisteminin fəaliyyəti ilə bağlıdır. Passionarlıq dərəcəsi müxtəlifdir, lakin onu tarixdə qeyd etmək, yaxud tarixi dəyişmək üçün hökmən passionarlar çox olmalıdırlar. Çünki, passionarlıq bir nəfərin deyil, çoxluğun atributudur» (16. 363-364).

Passionarlığa tərif verərkən o yazır:

«Başlanğıc üçün bir vacib faktı qeyd edək. Uzun tarixi zamanda biosferada biokimyəvi enerjinin canlılarda bərabər halda paylanmaması müxtəlif regionlarda etnik kollektivlərin davranışlarında özünü göstərir. Bu enerjidən variasiyalarla yaranan effekt adamlarda xüsusi xarakter və keyfiyyətlə müşayiət olunur. Biz bunu «passionarlıq» adlandırırıq *(«Passio» sözü latınca «ehtiras» deməkdir.)* Passionarlıq - xarakterə dominant olub daxilən özündən uzaqlaşdırıla bilməyən (bilərəkdən, çox vaxt isə bilməyərəkdən) hər hansı bir məqsədə istiqamətləndirilmiş fəaliyyətə can atmadır. Qeyd edək ki, bu məqsəd passionar şəxslərdə şəxsi həyatlarından daha qiymətlidir, hətta müasirlərinin və həmtayfalarının həyat və xoşbəxtliyindən də» (104. 33)

L.N.Qumilyova görə passionarlıq davranış qaydasının xüsusiyyətidir və özünü qorumağın yüksək instiktinin artması deməkdir (17. 300).

O, öz əsərlərində qeyd edir ki, passionarlığın bir tərəfi coğrafi aspektdirsə, digər tərəfi biokimyəvi aspektdir.

Etnosun coğrafi və biokimyəvi aspektlərlə bağlılığı orijinal olsa da ilk dəfədir ki, səslənmir. Lakin passionarlığın yuxarıda adlarını çəkdiyimiz aspektlərlə bağlılığını ilk dəfə L.N.Qumilyov yazıb.

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

